**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DAĞ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLUNUN ARTIRILMASI MƏSƏLƏLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5308:01 - "Ümumi iqtisadiyyat" |
| Elm sahəsi: | İqtisad elmləri |

İddaçı: **Ülviyyə Zakir qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru<br>**Arzu Nəcəf oğlu Həsənov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Elmira Məhəmmədovna Qocayeva** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Mansur Akif oğlu Mədətov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

| | |
|---|---|
| Birgə Dissertasiya şurasının sədri: | AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Birgə Dissertasiya şurasının elmi katibi: | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: | iqtisad elmləri doktoru<br>**Elşən Əli oğlu İbrahimov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hazırda Azərbaycanda qeyri-neft sahələrinin inkişafı çox aktual bir məsələdir. Bu, milli iqtisadi sistemin neftdən asılılığının azalmasına və təbii ki, daha da inkişaf etməsinə kömək edən amillərdən sayılır. Qeyri-neft sahəsinin inkişafı zamanı xidmət sahələrinə xüsusi diqqət yönəldilməsi vacibdir. Bu da isbatlanır ki, xidmətlər göstərən sahələr iqtisadi artımın, inkişafın və məşğulluğun təminində mühüm rol oynayır. Bu baxımdan inkişafı prioritet sayılan xidmət sahələrindən olan turizmin inkişafı mühüm əhəmiyyət kəsb edir. Turizmin ölkə iqtisadi həyatıda rolu, eləcə də onun regionların inkişafı, xüsusən xarici turist axını cəlbi üçün planlaşdırılan maddi məhsul və xidmətlərin istehsalının yeni sahələrinin yaradılmasına stimullaşdırıcı təsiri ilə də müəyyənləşir. Turizm onunla əlaqədar olan sahələrdə də məşğulluğun təmin olunmasına səbəb olur. Turistlərin istehlakı müvafiq malları və xidmətləri istehsal edən sahələrin inkişafını stimullaşdırır və bu da onların turizm sahəsinə kapital qoyuluşları imkanlarını artırmış olur. Eyni zamanda, göstərilən sahələrdə istehsal həcmi azaldıqca, turizm onlara əlavə güclü təsir göstərir. Ölkəmizdə turizm bazarının formalaşması və inkişafı birbaşa bu sahədə ixtisaslaşan turizm müəssisə və təşkilatlarının fəaliyyəti və turistik obyektlərin mövcudluğu ilə təmin edilir. Müəyyən bir bölgədə turizm üzrə ixtisaslaşmaq üçün resurslardan minimal şəkildə istifadə edərək maksimal mənfəət əldə etmək, milli və eləcə də beynəlxalq bazarda tanınmaq əsas məsələdir.

Dağ rayonlarının inkişafı hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Bununla əlaqədar olaraq hələ 1986-cı ildə Azərbaycan SSR-də dağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Azərbaycan SSR Nazirlər Soveti 100 saylı qərar qəbul etmişdir.

Turizmin inkişafı əlaqədar sahələrlə yanaşı nəqliyyat infrastrukturunun da təkmilləşdirilməsini tələb edir. Deməli, dağ rayonlarında turizmin inkişafı, bu rayonlar üçün əsas problemlərdən biri olan yol-kommunikasiya infrastrukturunun da yenidən qurulmasına və müasir standartlara uyğunlaşdırılmasına imkan verər.

Dağ rayonlarında turizm xidmətləri sahələrinin yaradılması, turizm bazarı infrastrukturunun formalaşdırılması, qeyri-neft sektorunun inkişafında prioritet istiqamətlərdən, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasında mühüm fəaliyyət növlərindən, regional və qlobal iqtisadi sistemlərə inteqrasiya və, mövcud təbii ehtiyatlardan səmərəli istifadə vasitələrindən biri hesab edilə bilər. Eyni zamanda, dağ rayonlarında turizmin inkişafı mövcud təbii, antropogen ehtiyatların iqtisadi dövriyyəyə cəlb edilməsinə, yeni turizm obyektlərinin yaradılmasına, bu ərazilərdə yerləşən qeyri-adi təbii ehtiyatlar əsasında fərqli turizm xidmətləri və məhsullarının istehsalına rəvac verir. Bir sözlə, mühüm müsbət fəaliyyət sahələrinin inkişafına əlavə təşviqin yaranmasına zəmin formalaşdırır, ərazilərin məxsusi mədəni-məişət ənənələrinin tanıdılması imkanlarını genişləndirir. Bütün bunlar da ərazilərə turist axınlarının fəallaşmasına səbəb olur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində qeyd etmişdir: "*Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir*"[1].

Ölkəmizdə turizm sənayesinin sistemli və davamlı inkişafı ilə bağlı ardıcıl dövlət siyasəti həyata keçirilir. Milli turizm sənayesinin inkişafı məqsədilə bir çox proqram, strategiya, strateji yol xəritəsi qəbul və icra edilmiş, perspektiv dövrdə bu sahənin inkişafı əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" (27 avqust 2002-ci il), "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" (6 aprel 2010-cu il), "2019-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" AR Prezidentinin 1 sentyabr 2016-cı il tarixli Sərəncamı, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016-cı il), "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı

---

[1] https://www.anl.az/down/medeniyyet2007/mart/medeniyyet2007_mart_151.htm

əlavə tədbirlər haqqında" 2017-ci il 20 fevral tarixli Sərəncam, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər direktiv sənədlər, normativ-hüquqi aktlar son illər reallaşdırılan turizm siyasətinin vacib elementləridir.

Bundan başqa, milli turizm sənayesinin səmərəli idarə edilməsi məqsədilə struktur dəyişiklikləri aparılmış, respublika üzrə turizmin idarə edilməsinin çevikliyini təmin edən struktur-Dövlət Turizm Agentliyi yaradılmışdır.

Ölkənin və regionların, o cümlədən dağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə mövcud turizm ehtiyatları əsasında turizmin inkişafının ön plana çekilməsinə əlavə zərurət yaranır. Kifayət qədər zəngin və rəngarəng təbii turizm ehtiyatları, təbii abidələr, mineral və termal sular, biomüxtəliflik, flora və fauna, su hövzələri, ekoloji təmiz ərazilər və landşaftlar dağ rayonlarında turizmin inkişafına geniş imkanlar yaradır. Turizmin inkişafı isə öz növbəsində dağ rayonlarının sosial-iqtisadi, ekoloji, mədəni və digər problemlərin həllinnə və ərazilərin kompleks inkişafına ciddi təkan verəcək. Turizmin güclü multiplikativ təsiri ərazilərdə digər fəaliyyət sahələrinin inkişafının təmin edilməsində əsas hərəkətverici qüvvvələrdən biri kimi çıxış edərək ev və ailə-kəndli təsərrüfatlarının gəlirlərinin artmasına, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına da əsas verəcək və maddi-rifah halının yüksəldilməsi imkanlarını daha da genişləndirəcək, kənd əhalisinin miqrasiyasının qarşısının alınmasına, yerli əmək ehtiyatlarının səmərəli istifadəsinə zəmin yaradacaq.

Tədqiqat  üçün seçilmiş dissertasiya mövzusu dağ rayonlarının sosial-iqtisadi inkişafinda turizmin rolunun artırılması məsələlərinə həsr edilib. Turizmin regionların sosial-iqtisadi, mədəni, ekoloji, davamlı və dayanıqlı inkişafında rolu və əhəmiyyətini bilərək, regionlarda, o cümlədən dağ rayonlarında turizmin inkişafının bu ərazilərin inkişafında rolunun və sosial-iqtisadi səmərələrinin elmi-nəzəri, konseptual və təcrübi aspektlərinin araşdırılmasını aktual hesab edirik. Eyni zamanda, ölkəmizdə dağ rayonlarının sosial-iqtisadi inkişafında turizmin roluna həsr edilmiş tədqiqatların az olması, bu mövzuda əlavə tədqiqatların aparılmasının zəruri olması fikrini gücləndirir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, turizmin inkişafının regionların və sosiumun sosial-iqtisadi və digər problemlərinin həllində rolu, ərazilərin və fəaliyyət sahələrinin inkişafında multiplikatıv effektləri sahəsində tədqiqatlar daim araşdırmaların obyekti olmuşdur. Bu sahədə yerli və xarici tədqiqatçılar davamlı araşdırmalar aparmaqdadır. Ölkəmizdə dağ rayonlarının inişafının, turizmin inkişafının ərazilərin, o cümlədən dağ rayonlarının sosial-iqtisadi inkişafına təsirlərinin müəyyən aspektlərinə dair Səmədzadə Z.Ə., Quliyev E.A., Ataşov B.X., İbrahimov E.R, İbrahimov İ.H., Həsənov A.N., Əzizov A.Ə., Məmmədov Z.S., Salmanov A.H. Əyyubov Ə., Bilalov B.Ə., Qafarov N.C, İsmayılov V.İ., Əlirzayev Ə.Q., Əliyeva N.R., Kasumov R.M., Yeqanlı S.T., Məmmədov C.A., Soltanova H.V., Rəhimov S.H., Məmmədov E.Q., və digər yerli alimlər müəyyən tədqiqatlar aparmışlar.

Turizm sferasının inkişaf etdirilməsi ilə bağlı problem məsələlərin tədqidinə fundamental yanaşmalar xarici ölkələrin alimlərindən İ.T. Tverdokhlebov, Zorin I.V., Vedenin Y.A., Kvartalnov V.A., Əhmədxanova S.T., Çudnovskiy A.D., A. Д Aydayev Q. A., Balabanova A.A., Vijina İ.Q., Dınkin Y.V., Kovalyov V.V., Seleznyov A.Z., Çaynikova L.N., Camilleri M.A., Cholik, M.A., Israel, D.Nebenzahl, Hindle T.Field və s. əsərlərində əks etdirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi dağ rayonlarında turizm fəaliyyəti ilə məşğul olan təsərrüfat və təşkilatların toplusu götürülmüşdür.

Tədqiqatın predmetini dağ rayonlarının sosial-iqtisadi inkişafında turizmin rolunun artırılması və təsirinin təşkilati-iqtisadi mexanizmləri, üsul və vasitələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycanın dağ rayonlarında davamlı sosial-iqtisadi inkişafa nail olunmasında turizm sənayesi sahələrinin rolunun artırılması mexanizmlərinin formalaşdırılması istiqamətində konseptual və elmi-nəzəri və təcrübi əhəmiyyətli təklif və tövsiyələr irəli sürməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- ölkədə turizm potensialının mövcud vəziyyətinin araşdırılması;
- Azərbaycanın dağ rayonlarında turizmin inkişafının mövcud vəziyyətinin təhlili;

- ölkənin turizm rayonlarının balneoloji təhlilinin aparılması;
- Azərbaycanda turizm sahəsində həyata keçirilən dövlət siyasəti və proqramlarının qiymətləndirilməsi;
- dağ rayonlarında turizmin inkişafı və təkmilləşdirilməsi yollarının araşdırılması;
- turizmin ölkə regionlarının və ümumiyyətlə iqtisadiyyatın inkişafına təsirinə dair yeni yanaşmaların işlənməsi.

**Tədqiqatın metodları.** Tədqiqat işində müşahidə, təhlil, müqayisə, sintez, induksiya, deduksiya, məntiqi, riyazi-statistik və s. metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- dağ rayonlarında turizmin inkişafından əldə ediləcək ümumi səmərəlilik müasir dövrümüzün tələbinə çevrilmişdir;
- dağ rayonlarında turizm-rekreasiya fəaliyyətinin inkişafına mənfi təsir göstərən amillərin müəyyən edilməsi və onların təsirinin azaldılması sahənin inkişafı baxımından prioritetdir;
- Azərbaycanda dağ turizminin inkişafı baxımından dünya təcrübəsində özünü doğrultmuş metodlar öyrənilməlidir;
- turizm sənayesinin inkişafına investisiyaların cəlb edilməsi zərurililiyinin araşdırılması vacibdir;
- Azərbaycanda dağ turizminin inkişafı ilə əlaqədar müvafiq sahələrin də tədqiqata cəlb olunması vacib məsələlərdəndir;
- Azərbaycanın yeni turizm əmtəə nişanının hazırlanması istiqamətində turizm sənayesinin inkişafının təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi zəruridir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi əsasən aşağıdakılardan ibarətdir:

- turizm xidmətlərinə dair nəzəri yanaşmalar ətraflı təhlil edilmiş və turizmin inkişafına təsir edən amillər təsnifləşdirilmişdir;
- turizmin ölkəmizin dağ rayonlarının sosial-iqtisadi inkişafında rolunun artırılması istiqamətləri müəyyən edilmişdir;
- dağ rayonlarında turizmin inkişafı üzrə dünya təcrübəsində geniş yayılmış metodlar və iqtisadi mexanizmlərin tətbiqi imkanları tədqiq edilmişdir.

- dağ rayonlarında turizmin inkişafının sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları araşdırılmışdır;
- işğaldan azad edilmiş ərazilərdə turizmin mövcud vəziyyəti hərtərəfli tədqiq edilmiş, inkişaf potensialı üzə çıxarılmışdır;
- Azərbaycanın turizm siyasəti və onun əsas istiqamətləri araşdırılmış, bir sıra təklif və tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri məsələləri gələcəkdə tədris materialları kimi Turizmin iqtisadiyyatı, Azərbaycanın turizmi, Turizmin inkişafı və idarə edilməsi və s. fənnlərin tədrisində istifadə oluna bilər. İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, burada irəli sürülən təkliflər dağ rayonlarında səmərəli turizmin təşkilinə müsbət töhvə verə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müdəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 5 məqalədə və 4 tezisdə öz əksini tapmışdır. Dissertasiyanın əsas məzmununu əks etdirən konfrans materialları sırasında "Socio – economic nature and characteristics of tourism service areas (İtaliya, 2022)", "Dağ turizmi və onun Azərbaycanda inkişaf prespektivləri" (Sumqayıt, 2022), "Factors shaping the development of tourism services in mountain regions (Polşa, 2023)", "Azərbaycanın dağ rayonlarında turizmin inkişafında Heydər Əliyevin rolu (Bakı, 2023) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin "Azərbaycanda turizmin inkişafının müasir tendensiyaları (Bakı, 2018)", "Azərbaycan Respublikasında turizm infrastrukturunun inkişafının tənzimlənməsi (Bakı, 2020)", "Dağ rayonlarında turizm xidmətlərinin səmərəliliyinin yüksəldilməsi yolları (Bakı, 2022)", The role of tourism in the development of mountain regions (Polşa, 2022) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın yazılması prosesində 145 adda elmi

ədəbiyyatdan istifadə edilmişdir. Giriş (11800 işarə), I fəsil (71135 işarə), II fəsil (71456 işarə), III fəsil (52584 işarə), nəticə (8781 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (14771 işarə) üzrə ümumi həcm 240870 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 215756 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılmış, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi barədə məlumatlar təqdim olunmuşdur.

Dissertasiya işinin birinci fəsli **"Turizmin dağ rayonlarinin sosial-iqtisadi inkişafina təsirinin nəzəri-metodoloji əsaslari"** adlanır. Qeyd olunur ki, turizm sektoruna xüsusi diqqət yetirilməsi iqtisadiyyatın inkişafına təkan verməklə yanaşı, onun şaxələndirilməsi baxımından da əhəmiyyətli sayılır. Azərbaycanda neft sektoru iqtisadiyyatın hərəkətverici qüvvələrindən biri olaraq büdcənin əsas gəlir mənbəyi kimi istifadə olunsa da, yeni gəlir mənbələrinin hərəkətə gətirilməsi çox vacibdir. Müəllif haqlı olaraq bildirir ki, turizm sektorunun inkişaf etdirilməsi qeyri-neft sektorunun ölkənin ümumi daxili məhsulundakı (ÜDM) xüsusi çəkisinin artmasına gətirib çıxarar. Həmçinin beynəlxalq turizm çərçivəsində ölkəyə xarici turistlər tərəfindən gətirilən xarici valyutalar Azərbaycanın mill valyutası manatın möhkəmlənməsinə səbəb olur. Bu isə Azərbaycanın 2030-cu ilə qədər həyata keçirilməsi nəzərdə tutulan sosial və iqtisadi inkişaf məsələlərini, o cümlədən turizm fəaliyyətini əhatə edən milli prioritetlərdə də öz əksini tapmış daxili və xarici təsirlərə qarşı dayanıqlığa nail olunmasına kömək edəcəkdir.

Turizmin sosial-iqtisadi mahiyyəti, nəzəri baxımdan qiymətləndirilməsi müasir dövrdə iqtisadi inkişaf və dayanıqlılığın təmin olunması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Ölkədə iqtisadi potensialın formalaşmasında, resurslardan daha səmərəli istifadə edilməsində, inkişafın dinamikasının müəyyən edilməsində turizmin rolu olduqca vacibdir. Ayrıca bir fəaliyyət növü olmaqla yanaşı, turizmin nəzəri baxımdan qiymətləndirilməsinin digər

vacib cəhəti isə iqtisadiyyatın digər sahələrində balanslı inkişafı, ərazi potensialının və əhalinin rifah halının yaxşılaşdırılması hesab olunur.

Qeyd olunanlar son nəticədə turizm sahəsindəki tədqiqatları daha da dərinləşdirirdi. İlk tədqiqatlar XX əsrin ortalarında Fransada, daha sonralar İngiltərə və digər ölkələrdə geniş yayılmağa başlanıldı. Fransada ilk olaraq turizmin inkişaf proqramları qəbul edildi, daha sonralar bu proqramın reallaşması üçün digər sahələrin balanslı inkişaf zərurəti meydana çıxdı. Bütün bunlar turizmin bir fəaliyyət növü kimi iqtisadiyyatın və cəmiyyətin inkişafında nə dərəcədə əhəmiyyətli rol oynadığını həm nəzəri, həm də praktiki olaraq əsaslandırmış oldu.

Fərqli iqtisadi sistemlərdə turizm anlayışının mahiyyətinin müxtəlif açıqlanmasına rast gəlirik. Müəllif apardığı araşdırmalar nəticəsində müəyyən etmişdir ki, turizm həm fəaliyyət sahəsi kimi, həm də səmərə götürmək cəhətdən daha geniş profildə bazar iqtisadiyyatı sistemində araşdırılmışdır.

Bəziləri belə hesab edir ki, turizm sahəsi bazar sistemində ayrıca sahə kimi səciyyələndirilsə də, onu xalis sahə kimi deyil, yardımçı və dayanıqlılığı təmin edən köməkçi sahə kimi nəzərdən keçirmək məqsədəuyğun olardı. Məhz bu cür yanaşmanın əsasında turizm sahəsi üçün xarakterik olan terminlərin bazar iqtisadi sistemində daha çox işlədilərək vəhdət halında nəzərdən keçirilməsi durur. Hesab olunur ki, bunlara turizm resursları, turizm potensialı, turizm məhsulu, turizm idarəetməsi, turizm xidmətləri, turizm bazarı və s. aiddir. Bazar iqtisadi sistemi üçün ən çox əhəmiyyət kəsb edən anlayışlardan biri məhz turizm bazarı anlayışıdır. Tarixən turizmin aşağıdakı istiqamətlərdə konsepsiyaları formalaşıb inkişaf etmişdir. Onlara qeyri-mərkəzləşdirilmiş şəkildə fəaliyyət göstərən, beynəlxalq inteqrasiyaya, əmək bölgüsünün dərinləşməsinə xidmət edən turizm bazarları misal ola bilər.

Nəzərə almaq lazımdır ki, normal bazarlarda fəaliyyət göstərən müxtəlif obyektiv iqtisadi qanunlar, iqtisadi mexanizmlərin mövcudluğu bu bazarlar üçün də xarakterikdir. Lakin ənənəvi bazarlardan fərqli olaraq turizm bazarında iqtisadi münasibətlər mütləq mənada vasitəçilər tərəfindən reallaşdırılır.

İqtisadi ədəbiyyatlarda qeyd edilir ki, turizm məhsuluna tələbatın yaranması bilavasitə insanın motivasiyası və davranışına əsaslanır. Bu

nəzəriyyəyə əsasən turizm məhsullarına olan tələbatın əsas hərəkətverici qüvvəsi kimi gəzinti və səyahətin daha da maraqlı olması, sevinc hissinin təmin olunması çıxış edir.

Qeyd etmək lazımdır ki, turizmin nəzəri-metodoloji aspektlərini araşdıran xarici alimlərə V.A.Kvartalnov, V.İ.Azar, yerli tədqiqatçılardan Ə.Q.Əlirzayev, R.M.Qasımov və başqaları misal ola bilər. Turizm anlayışını təhlil edərkən belə bir qənaətə gəlir ki, bu asudə vaxtı olan hər bir şəxsin sosial qrup şəklində və ya fərdi şəkildə səyahətçi kimi və ya 24 saatdan az olmayaraq yaşadığı yeri tərk edərək iş axtarmaq məqsədi ilə (daimi yaşayış yerini dəyişməklə səfərlər istisna olmaqla) insanlar arasında yaranan münasibətləri özündə ehtiva edir.

Turizmin formalaşmasına təsir edən amillər qrupunun müəyyən olunması onun nəzəri-metodoloji aspektində diqqəti çəkən əsas məqamlardan biridir. Müəllifin zənnincə, bu yanaşma iki istiqamətdə inkişaf etmişdir:

Birinci istiqamət olaraq sosial-iqtisadi amillər əsas götürülür. Bu qrup amillərə hər şeydən əvvəl xidmətlər istehsalı onun həcmi və qruluşu daxildir. Sosial-iqtisadi amillərin təsirinin əsasında şəxsi və ictimai tələbatın formalaşması durur. Bütövlükdə ölkə iqtisadiyyatında olduğu kimi turizm sektorunda da malların (xidmətlərin) dövriyyəsi həyata keçirilir. Əlbəttə ki, bu da milli təsərrüfatçılıqda ümumi gəlirlər və xərclər dövriyyəsinin bir hissəsi kimi təzahür edir.

İddiaçı tərəfindən kinci istiqamət kimi müəyyənləşdirilən psixi-fizioloji amillər içərisində turizm məhsullarının (xidmətlərinin) istehlakçılarının (turistlərin) psixoloji vəziyyəti, onların mədəni inkişaf səviyyəsi, dəbin tələbləri ilə vəhdət təşkil edən əhval ruhiyyəsi və s. əsas götürülür.

Müasir dövrdə ədəbiyyatlarda turizm anlayışı, turizm potensialı, bu potensialdan istifadə mexanizmləri və ona təsir edən xarici amillər daha geniş şəkildə tədqiq olunmağa başlanmışdır. Turizm potensialı dedikdə, investisiya qoyuluşu, ev təsərrüfatlarının resursları (maddi və maliyyə formasında), ev təsərrüfatlarının əmək resursları qismində olan hissəsi və s. başa düşülür. Fəaliyyət baxımından mexanizmlərə xərc, qiymətləndirmə, gəlir (mənfəət), vergilər, subsidiyalar, digər ödəmələr və s. aiddir. Bunlar ənənəvi iqtisadi

mexanizmlərə uyğun mexanizmlərdir. İstər turizm məhsulu, istərsə də onun potensialı və reallaşma mexanizmləri xarici amillərə əsaslanırsa (bir çox İEOÖ-lərin timsalında buna rast gəlinir), bütövlükdə turizm bazarı isə tam xarici amillərdən asılı olan sahə kimi xarakterizə olunur.

Tədqiqatçı hesab edir ki, turizm sahəsindəki problemlər sosial-iqtisadi aspektdə nəzərdən keçirilməlidir. Ona görə də burada təkcə iqtisadi deyil, eyni zamanda sosial məsələlər də diqqət mərkəzində olmalıdır. Bunlara əhalinin məskunlaşması, coğrafi yerdəyişməsi, demoqrafik proseslər, onların adət və ənənələrinin qərarların qəbuluna nə dərəcədə təsir gücünə malik olması, məşğulluq vərdişləri və s. problemləri aid edilə bilər.

Təbii resurslar ərazinin rekreasyon yöndə istifadəsi üçün aparıcı amillərdən biridir. Baxmayaraq ki, A.A.Mintsin sözlərinə görə "istehsal fəaliyyətinə təbii amillərin təsiri müəyyən texniki vasitəsilə həyata keçirilir", təbii şəraitin xarakteri rekreasyon komplekslərin formalaşması və inkişafına əhəmiyyətli təsir göstərir. Çünki təbii resurslar istirahət edənlər tərəfindən istirahət və səyahər rayonunun seçilməsində böyük rol oynayır. Rekreantlar landşaft və iqlimin xüsusiyyətlərini, bitki və heyvanat aləminin zənginliyi və müxtəlifliyini, idmanla, ovla, balıq ovu ilə məşğul olmaq imkanlarını nəzərə alırlar. Rekreasyon fəaliyyətinin növ və formalarının təşkli, kompleksin tipi ərazinin hansı təbii resurs dəstinə malik olmasından asılıdır. Resursların dəyərliliyindəki müxtəliflik bir tərəfdən onların müəyyən təbii komplekslərə aid olmasından, digər tərəfdən isə onların ƏRK-də oynadığı roldan asılıdır.

Rekreasyon ərazilərin inkişafı üçün ilkin şərtlərin müəyyən edilməsi regionun fiziki-coğrafi xarakteristikasını öyrənməyi tələb edir. Bu baxımdan xarici və yerli mütəxəssislərin kifayət qədər təcrübəsi vardır.

Son illər təbii komplekslərin rekreasyon qiymətləndirilməsinin prinsiplərinə metodoloji yanaşma geniş yayılmışdır. Onların içərisindən V.Stauskasın istirahət zonalarının layihələndirilməsi zamanı landşaftın qiymətləndirilməsi meyarlarının hazırlanmasına cəhd edilməsi maraq doğurur. Bu tədqiqatın əsasında müəllif təbii amillərlə yanaşı təsərrüfat amillərini də (meşələr, çaylar, relyef, yollar və s.) nəzərə alır. Nəticələr beş ballıq sistemlə qiymətləndirilir.

M.Q.Bojkonun əsərində istirahət regionları təbii xüsusiyyətləri ilə yanaşı ərazinin iqtisadi inkişaf istiqaməti üzrə də qiymətləndirilir. Müəlliflər ərazinin mühəndis-tikinti qiymətləndirilməsini aparır və torpaqlardan təsərrüfat məqsədilə istifadənin məqsədəuyğunluğunu müəyyənləşdirirlər.

Y.A.Vedenin və N.N.Miroşniçenkonun ərazilərin rekreasyon bonitirovkasının metodikası üzrə tədqiqat əsəri maraq doğurur. Burada müəlliflər dünyanın fiziki-coğrafi atlası, iqlim atlası, iqlim üzrə kitabça əsasında hazırladıqları sistemə uyğun olaraq rekreasyon əraziləri qiymətləndirirlər.

İstirahət və turizm məqsədilə təbii şəraitin qiymətləndirilməsi çox mürəkkəbdir. Müalicə resurslarının qiymətləndirilməsindən fərqli olaraq burada peyzajların cazibədarlığı, onların gözlənilməzliyi, ekzotikliyi, təkrarolunmazlığı xüsusi əhəmiyyət kəsb edir.

İngilislərin hazırladığı sistemə əsasən xarakterik ingilis peyzajları 18 ballıq, Himalay dağlarındakı mənzərələr isə 32 ballıq sistemlə qiymətləndirilir. M.Klausun (Almaniya) sözlərinə görə Rostok mahalında istirahət mərkəzlərinin layihələndirilməsi təbii-iqlim şəraitinin (ümumilikdə landşaftın, relyefin, iqlimin, bitki örtüyünün) qiymətləndirilməsi üzrə ballarla həyata keçirilir. Y.Varçinskaya (Polşa) istirahət və turizm məqsədilə təbii resursların qiymətləndirilməsini riyazi funksiya əsasında hesablanmış model üzrə həyata keçirməyi təklif edir. Bu təklif dağ turizmi məqsədilə Krakov regionunun qiymətləndirilməsi zamanı sınaqdan keçirilmişdir. Bu zaman ərazinin əsas landşaft xüsusiyyətləri (relyef, hidroqrafik şəbəkə, bitki örtüyü) nəzərə alınmışdı.

V.Reynhard (Almaniya) landşaftın rekreasyon qiymətləndirilməsi üzrə 20-dən çox metodu nəzərdən keçirdikdən sonra belə nəticəyə gəlmişdir ki, belə qiymətləndirmənin əsasında ərazinin müxtəlif növ tutumunun tədqiqi durmalıdır: texniki və ya buraxılış qabiliyyəti (yolların, avtodayanacaqların, turist cığırlarının sayı və s.), landşafta düşə biləcək yükdən irəli gələn iqtisadi tutum, normal istirahət üçün maneə yaratmayan ziyarətçilərin miqdarı ilə ölçülən psixoloji tutum və nəhayət maliyyə tutumu (ərazi sahibinin maliyyə imkanları). Digər almaniyalı mütəxəssis Z.Günter ərazinin istirahət və turizm üçün yararlılığının qiymətləndirilməsi zamanı çoxlu meyarlardan istifadə

etməyi təklif edir. Birinci meyar ərazinin sahəsi, ikinci meyar bir rekreasyon ərazinin daxilində landşaftın dəyişkənliyi və üçüncü meyar istirahət zonasına mənfi təsir (səs-küy, toz, qoxu və s.).

Müəllif belə hesab edir ki, müxtəlif amillərin qiymətləndirilməsi zamanı onların rekreasyon fəaliyyət üçün əhəmiyyəti nəzərə alınmalıdır. Bu baxımdan, qiymətləndirmənin əsasını təşkil edən əsas amillərə aşağıdakılar aid edilməlidir: əlverişli temperatur şəraitinin müddəti, dəniz sahillərinin mövcudluğu, relyefin xüsusiyyətləri, meşələrin, çayların, göllərin və su anbarlarının mövcudluğu. Digər tərəfdən nəqliyyat magistralları ilə təminat səviyyəsi də nəzərə alınmalıdır.

Yuxarıda qeyd olunanlara əsaslanaraq dissertasiyada aşağıdakı rekreasyon rayonlar fərqləndirilir:

1. Şamaxı-Zaqatala, 2. Qusar-Şabran, 3. Gəncə-Mingəçevir, 4. Kəlbəcər-Qarabağ, 5. Kür ovalığı, 6. Abşeron-Qobustan, 7. Naxçıvan, 8. Lənkəran.

Seçilmiş 8 rekreasyon rayonda aşağıdakı 56 rekreasyon məkan müəyyən edilmişdir:

1. Şamaxı-Zaqatala rayonu: Qəbələ, Şəki, Buğur, Oğuz, İsmayıllı, Qax, İlisu, Zaqatala, Qoruq, Şamaxı, Çuxuryurd, Pirqulu, Kaleybuqurd, Lahıc, Basqal.
2. Qusar-Şabran rayonu: Yalama-Xudat, Quba, Laza, Afurcin, Qonaqkənd, Gilgilçay, Qalaaltı.
3. Gəncə-Mingəçevir rayonu: Göygöl, Hacıkənd, Göygöl-Maralgöl, Qazanbulaq, Naftalan, Gədəbəy, Tovuz, Ağstafa, Mingəçevir, Kür ətrafı.
4. Kəlbəcər-Qarabağ rayonu: Suqovuşan, Xankəndi, Şuşa, Lısoqorsk, İstisu, Levçay, Laçın, Qubadlı.
5. Kür ovalığı rayonu: Sabirabad, Ust-Kür.
6. Abşeron-Qobustan rayonu: Abşeronun şimal sahilləri, Şıxov-Primorsk-Qobustan, Altıağac.
7. Naxçıvan rayonu: Biçənək, Şirlan, Badamlı, Naxçıvan, Ordubad, Sirab.
8. Lənkəran rayonu: Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Kurkosa.

Tədqiqat işinin ikinci fəsli **“Dağ rayonlarında turizm sənayesinin inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi”**ndən bəhs edir. Müəllif qeyd edir ki, mehmanxana və mehmanxana tipli müəssisələrin də artması turistlərə daha gözəl xidmətdən başqa, həm də məşğul olan əhalinin sayında artıma səbəb ola biləcək amillərdəndir. Dağ rayonlarında yeni iş yerlərinin açılması turizm sektorunun inkişafı, xüsusən də mehmanxana və bu tipli müəssisələrin inşası nəticəsində təmin oluna bilər. Bu da, eyni zamanda region əhalisinin Bakıya işlə bağlı, yaxşı yaşayışla bağlı axın etməsinin qarşısını almaqda da kömək edər.

Qəbul edilmiş prinsiplər və metodika əsasında iddiaçı Azərbaycanda seçilmiş ərazilərin təbii-iqlim, kurort və təsərrüfat şəraiti tədqiq etmişdir. Bu onların kəmiyyət və keyfiyyət xarakteristikasını verməyə imkan yaradır.

Şamaxı-Zaqatala rekreasyon rayonu Böyük Qafqazın cənub yamacını və cənub-şərq qurtaracağını əhatə edir. Təbii-iqlim şəraitinin müxtəlifliyi ərazidən müalicəvi sanator-kurort, istirahət, turizm və idman istirahəti məqsədilə istifadə etməyə imkan verir.

Rayonun rekreasyon əraziləri burada iqlim (Qəbələ, Şəki, Buğur, Oğuz, Qax, İlisu, Zaqatala, Çuxuryurd, Pirqulu, Laçın, Basqal) və balneoiqlim (Şamaxı, Kaleybuğur, İlisu, Çuxuryurd) kurortlarını yaratmağa imkan verir.

Təbii-iqlim şəraiti yanaşı rayonda dəmir və kükürdlə zəngin olan mineral yataqların olması da kurortların yaradılmasını şərtləndirir.

İqlim şəraiti (uzunmüddətli isti yay fəsli, günəşli havaların çox olması, az ehtimallı və ya küləksiz hava şəraiti və s.) Şamaxı-Zaqatala rayonunu aktiv istirahət və turizm üçün perspektiv zonaya çevirir.

Rayonun iqlim şəraiti istirahət və turizmin həm yay, həm də qış növlərini inkişaf etdirməyə imkan verir. Avtomobil, piyada və su turist marşrutlarının həyata keçirilməsinin ən əlverişli müddəti may ayının ortalarından oktyabr ayınadək hesab olunur. Dağ dolanbaclarından keçən marşrutlar üçün bu dövr daha qısa olub 1 iyundan 1 oktyabradəkdir. Qış vaxtı dağlıq ərazidə turizm bazalarının fəaliyyəti qar örtüyünün dayanıqlı olmamasına görə məqsədəuyğun deyil. 1500-2000 m-dək yüksəklik xizək turizmi üçün daha əlverişli hesab olunur.

Təbii-landşaft şəraiti, mənzərəli meşələr, subalp və alp çəmənlikləri, zəngin heyvanat aləmi, çoxsaylı çaylar, mineral yataqlar buraya əldəyməmiş təbiət həvəskarı olanları cəlb edə bilər. Zaqatala qoruğu flora və fauna ilə tanışlıq baxımından xüsusi obyekt kimi istifadə oluna bilər.

Əlverişli təbii imkanlar və hər şeydən əvvəl dağ iqlim şəraiti rekreasyon landşaftla birlikdə bütövlükdə rayonu geniş rekreasyon zonaya çevirmiş olur.

Şəlalələr, Şəki xan sarayı, Zaqatala və İlisudakı qalalar, Şamaxı, Lahıc və Qəbələnin tarixi abidələri kimi ekskursiya obyektləri səyahətçi və turistlər üçün rayonu maraqlı edir. Kənd təsərrüfatı mallarının böyük çeşidi - ət, süd, meyvə, üzüm, tərəvəz səyahətçiləri ərzaqla təmin edir.

Qusar-Şabran rekreasyon rayonu Baş və Yan silsilənin nisbətən maili şimal-şərq yamacında və Samur-Dəvəçi ovalığı boyu uzanır. Rayonun coğrafi şəraitinin, onun iqtisadiyyatının, nəqliyyat şəraitinin, görməli yerlərinin və s. tədqiqi bütün rekreasyon fəaliyyət növlərinin inkişafı üçün universal imkanlara malik olduğunu sübut edir.

Rayonun dənizkənarı hissəsi, onun mənzərəli meşələri, Xəzər dənizinin isti sulu gözəl çimərlikləri ərazidən iqlim kurortları, istirahət, ekskursiya, kiçik turist gəzintiləri, ov və balıq ovu zonası kimi istifadə etməyə imkan verir.

Rayonun qar örtüklü dağlıq hissəsi mineral yataqları, əlverişli təbii-iqlim şəraiti ilə dağ-piyada turizminin, xizək turizminin, dağ-iqlim və balneoiqlim kurortlarının inkişafı üçün tövsiyə oluna bilər.

Rayonun orta dağlıq qurşağından (1800-2200 m) yay və qış turizm bazalarının təşkil edilməsi və iqlim kurortları kimi istifadə etmək məqsədəuyğundur. İqlim şəraitinin öyrənilməsi onu göstərir ki, dağ dolanbaclarındakı marşrutlardan 1 iyundan 1 oktyabradək istifadə etmək olar.

Azərbaycanın ƏRK-nin, turist təsərrüfatlarının və marşrutlarının yerləşdirilməsi zamanı ölkənin əlverişli coğrafi mövqeyi qonşu ölkələrlə əlaqələrin qurulması ilə uzlaşdırılmalıdır.

Qeyd etmək lazımdır ki, Bakı-Rostov dəmir yolu xəttinin, istirahət edənlərin dənizə və rayonun daxilinə hərəkətini təmin edən avtomobil yollarının geniş şəbəkəsinin, həmçinin Böyük Qafqazın

dolanbaclarından dağ cığırlarının mövcudluğu rayonun rekreasyon və xüsusən turizm məqsədləri ilə istifadə edilməsinə müsbət təsir göstərir.

Rekreasyon landşaftın müxtəlifliyi, palıd meşələri, dağ vadiləri, Yalama-Xudatın qum-çınqıllı dəniz sahilləri burada klimatoterapiyanı, aktiv turizmi və piyada turizmini inkişaf etdirməyə imkan verir. Dəniz akvatoriyalarının mövcudluğu dəniz gəzintiləri üçün şərait yaradır.

Rayonda yerləşmiş tarixi və memarlıq abidələri, həmçinin məlumatlandırma baxımından maraqlı tədbirlər müxtəlif ekskursiyaları təşkil etməyə imkan verir.

Rayonun məyvə-tərəvəz, ət-süd və yerli yeyinti məhsullarının istehsalında ixtisaslaşması istirahət edənləri müxtəlif növ ərzaqla təmin etməyə imkan verir.

Kəlbəcər-Qarabağ rekreasyon rayonu Qarabağ vulkanik yaylasını və yuxarı Qarabağın mürəkkəb relyefli dağlıq hissəsini əhatə edir. Rayonun coğrafi xarakteristikasının öyrənilməsi onu deməyə əsas verir ki, o rekreasyon məqsədlər üçün istifadə edilməyə yararlıdır. Bura dağ və meşələr, mənzərəli guşələr və mineral yataqlar, gözəl şəlalələr vətənidir. Təbiətin bu zənginliyi və müxtəlifliyi içərisində çoxsaylı qədim abidələr də saxlanılmışdır.

Rayonun dağ iqliminə mənsub müxtəlif hissələri sanatoriya-kurortların və aktiv istirahət növlərinin inkişafı üçün istifadə oluna bilər. Mineral yataqların çoxluğu, xüsusən karbonatlı, (İstisu, Bağırsar, Qızılçay, Turşsu, Nurəddin) və onların debiti iqlim balneoloji kurortları təşkil etməyə imkan verir. Burada həzm orqanlarının, ürək-damar sisteminin bəzi xəstəliklərinin və s. müalicəsi mümkündür.

Ərazinin relyefinin xarakteri, mütləq hündürlüklərdəki əhəmiyyətli fərqlər, bununla yanaşı yeni çəkilən yollar dağ-piyada, xizək, həmçinin avtomobil turizminin inkişafına əlavə zəmin yaradır.

Rayonun coğrafi mövqeyini turizm əlaqələrinin qurulması və inkişafı baxımından əlverişli hesab etmək olar. Rayonun iqlim şəraiti yay və qış turizm növlərinin inkişafına imkan verir. Həm yay, həmçinin qış turizm növlərinin inkişafı üçün ən əlverişli iqlim şəraiti orta dağlıq zonada (1500-2000 m hündürlük) mövcuddur.

Geniş elmi araşdırmalar və tarixi faktlar sübut edir ki, Qarabağ bölgəsi təbii-coğrafi resursları, vahid çay şəbəkəsi, ekoloji sistemi bütöv bir kompleksi təşkil edir.

Təbii ehtiyatların zənginliyi və onların turizm potensialı regionun qiymətləndirməsində kompleks inkişafın əsas aspekti ola bilər. Qarabağ əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin sərvətləri, əvəzedilməz təbii-iqlim xüsusiyyətləri, çox zəngin flora və faunası olan region kimi ölkənin turizm sənayesinin inkişafına nəfəs verə bilər. Qarabağın çoxlu mineral və termal su ehtiyatları ilə zənginliyi də regionun turizm potensialının artırılmasına müsbət təsir göstərəcəkdir. Ümumiyyətlə Qarabağ ölkəmizin ən zəngin turizm potensialına malik bölgəsidir. Burada füsunkar incəsənət nümunələri, qədim mədəniyyət və tarix, ecazkar təbiət nümunələrinin varlığı turizm kompleksinin yaradılmasında əlverişli yer tutur.

Rayonda kənd təsərrüfatının inkişafı turistləri ərzaq məhsulları ilə təmin etməyə imkan verəcək.

Naxçıvan rekreasyon rayonu Azərbaycanın ən cənub hissəsini tutur. Onun sərhədləri Naxçıvan Muxtar Respublikasının sərhədləri ilə eynidir.

Naxçıvan rayonunun heç də bütün hissəsi rekreasyon məqsədlər üçün yararlı deyil. Ayrı-ayrı yüksək dağ silsilələri çətin əlçatan olduğundan və bitki örtüyü olmadığından istirahət və turizm üçün əlverişli deyil. Eyni sözləri çöl və yarımçöl əraziləri haqqında da demək olar.

Yay və qış turizminin inkişafı üçün Naxçıvan və Ordubad düzləri, Biçənək, mineral yataqları olan Badamlı, Sirab, Batabat, Şirlan və Darıdağ daha əlverişlidir. Mineral yataqları ilə iqlim şəraiti burada iqlim və balneoiqlim kurortlarını təşkil etməyə imkan verir. Burada bir çox xəstəliklər müalicə oluna bilər: mədə-bağırsaq xəstəlikləri, qara ciyər və öd yolları xəstəlikləri, böyrək xəstəlikləri, ürək-damar və sinir sistemi xəstəlikləri, ginekoloji və dəri xəstəlikləri.

Rayonun nəqliyyat şəraiti avtomobil turizminin inkişafına şərait yaradır. Dəmir yolu şəbəkəsi vardır. Ərazinin təbii şəraiti uzunmüddətli piyada gəzintilərinə imkan vermir. Burada kiçik piyada ekskursiyaları təşkil etmək olar.

Lənkəran rekreasyon rayonu respublikanın cənub-şərq hissəsini tutur. Özündə Talış dağlarını və Lənkəran ovalığını birləşdirir. Rayonun

fiziki-coğrafi, təsərrüfat, nəqliyyat və digər şərtləri onu respublikada rekreasyon məqsədlər üçün ən əlverişli rayonlardan birinə çevirir.

Dəmir yolları, asfaltlaşdırılmış geniş avtomagistrallar, dəniz yolları həm rayondaxili, həmçinin rayonlararası əlaqələrin qurulmasına imkan verir.

Rekreasyon istifadə üçün rayonun Limandan Astarayadək olan Lənkəran ovalığı və Talışın orta dağlıq ərazisi daha əlverişlidir.

Bağlar və üzümlüklərlə örtülmüş cənubdan Talış dağları ilə əhatə olunmuş Lənkəran ovalığı çox mənzərəlidir. Bura Azərbaycanın Rivyerasıdır. Burada kurort şəhərcikləri və turizm bazaları qurmaq məqsədəuyğundur. Buradaca Qara dənizdən qatlanmış çınqıllarla fərqlənən gözəl qumsal çimərliklər vardır.

Rayonda olan kükürdlü (Masallı), acı-duzlu (Astara) mineral yataqlar balneoloji kurortların yaradılmasına imkan verir.

Yağıntıların qış mövsümündə çox olduğunu nəzərə alaraq yayda istirahət şəraiti daha əlverişlidir. Günəşli günlərin bolluğu, mülayim yay havası, cansıxıcı istilərin olmaması da buna şərait yaradır.

Rayonun subtropik meyvələrlə zəngin olması, meyvə-tərəvəzin, ət-süd məhsullarının bolluğu rekreasyon təsərrüfatları ərzaq məhsulları ilə təmin etməyə imkan verir.

2011-2022-ci illərdə Azərbaycana gəlmiş turistlərin sayı cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1.**

**Turizm məqsədilə Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 2011-2022-ci illər üzrə sayı (min nəfər)**

| 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1561.9 | 1985.9 | 2129.5 | 2159.7 | 1921.9 | 2044.7 | 2454.0 | 2605.3 | 2863.5 | 519.4 | 1979,5 | 3779 |

Dissertasiya işinin üçüncü fəsli **“Dağ rayonlarının inkişafında turizmin rolunun yüksəldilməsi yolları”** məsələlərinə həsr olunub. Ölkədə və regionda büdcə və əhali gəlirlərinin artmasına təsir edən amillərdən biri də məhz turizm sektorunun inkişafıdır. Belə ki, turizmin inkişafı regionda ətraf mühitin qorunması və onun təkrar istehsalı üçün zəruri olan mexanizmləri gücləndirir.

Regionlarda turizmin inkişafı məqsədilə əlavə tədbirlərin görülməsinə ehtiyac vardır. Müəllif hesab edir ki, turizm sektoruna xarici investisiyaların cəlb edilməsinin bir sıra üstünlükləri mövcuddur:

1. Xarici investisiyalar üçün münbit şərait:

- Regionda adambaşına düşən ən yüksək birbaşa xarici investisiya göstəricisi.
- İnvestorlar üçün hüquqi təminatlar.

2. Sürətlə inkişaf edən bazar iqtisadiyyatının mövcud olması.

3. Qeyri-neft sektorunda geniş imkanlar.

4. Təbii ehtiyatlar: faydalı qazıntılar və münbit torpaq.

5. Əlverişli strateji mövqe:

- Mərkəzi Asiya və Xəzər regionuna birbaşa çıxış.
- Beynəlxalq ticarət layihələrində iştirak (İpək Yolu, Şimal–Cənub dəhlizi).
- Avropa amili və Yeni Qonşuluq Siyasətinə qoşulma.

6. Rəqabət qabiliyyətli yerli işçi qüvvəsinin mövcudluğu.

Dağ rayonlarında rekreasyon obyektlərin yaradılması məşğulluq probleminin həlli baxımından da vacib əhəmiyyət kəsb edir. Turizm sənayesinin inkişafı ilə əlaqədar olaraq bir sıra ölkələrdə dağlıq ərazilərdə əhalinin məşğulluğu artmışdır. Həmin ölkələrə Polşanı, Avstriyanı, İsveçrəni, Fransanı və Balkan ölkələrini misal götərə bilərik. Bu ölkələrdə dağ rayonlarında yaşayanlar müşaiyətedici, ofisiant, suvenir istehsalçıları kimi çalışırlar.

Dağ rayonlarının sosial-iqtisadi inkişafında, şübhəsiz ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı I Dövlət Proqramının böyük rolu olacaqdır.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq onların turizm məqsədləri ilə istifadə olunması proqramda xüsusilə qeyd edilmişdir. Həmin ərazilərdə turizmin iqtisadiyyatın digər sahələri ilə birgə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq imkanlar nəzərə alınmaqla regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün tədbirlər planı hazırlanmışdır.

Tədqiqatçı qeyd edir ki, rekreasyon obyektlərin əmək resursları ilə təmin edilməsi zamanı təkcə əhalinin sayının, sıxlığının və yerləşməsinin nəzərə alınması ilə kifayətlənmək olmaz. Eyni zamanda onun demoqrafik tərkibinə də fikir vermək lazımdır. Bu hər şeydən öncə

milli xüsusiyyətlərin və qadın əməyindən geniş surətdə istifadənin nəzərə alınmasını tələb edir. Azərbaycanda əmək ehtiyatlarının böyük bir hissəsini qadınlar təşkil edir. Dünya yüksək inkişaf səviyyəsinə çatmasına baxmayaraq kişi və qadınlar arasında istər sağlamlıq, istər fiziki güc və istərsə də məişətdə tutduqları mövqeyə görə fərqliliklər hələ də mövcuddur. Dağlıq ərazilərdə turizm təsərrüfatlarında qadın əməyindən istifadə edilməsi aktual əhəmiyyət kəsb edir.

Bir çox iqtisadçıların da qeyd etdiyi kimi kişi əmək ehtiyatlarından rasional istifadə etmə anlayışı ilə qadın əmək ehtiyatlarından rasional istifadə etmə anlayışlarına yanaşmada eynilik tətbiq etmək olmaz. Belə ki, bir qayda olaraq əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli kişilərin hamısı ictimai əmək sferasında çalışırlar. Qadın əməyindən rasional istifadə dedikdə isə burada artıq onların ictimai və şəxsi əmək sferasında elə səmərəli yerləşdirilməsindən söhbət gedir ki, bu zaman onların şəxsi inkişafı həm iqtisadi, həmçinin sosial nöqteyi nəzərindən məqsədəuyğun olsun.

Dağlıq rayonlarda kiçik yaşayış məntəqələri əksəriyyət təşkil edir. Respublika üzrə apardığımız tədqiqat əsasında qeyd edə bilərik ki, kiçik yaşayış məntəqələrində əhalinin məşğulluq problemi və bu zaman gender probleminin nəzərə alınması çox qabarıq şəkildə özünü göstərir.

Kiçik yaşayış məntəqələri üzrə işsiz əhalinin keyfiyyət tərkibinin təhlili onu deməyə əsas verir ki, burada onların savadlılıq səviyyəsi mühüm əhəmiyyət kəsb edir. Tədqiqat göstərir ki, kiçik yaşayış məntəqələrinin əhalisinin böyük əksəriyyəti ibtidai və natamam orta təhsilə malikdirlər.

Elmi-texniki tərəqqinin yüksək inkişafı kadrların peşəkarlıq səviyyəsinin artırılmasını tələb edir. Bu rekreasyon təsərrüfatlar üçün xüsusi əhəmiyyət daşıyır. Belə təsərrüfatlardakı işlərin xüsusiyyətləri istirahət edənlərin böyük kontingentinə xidmətlərlə bağlı olduğundan mədənilik və savadlılıq tələb edir.

Turizm sektorunun məhsuldarlığı bütövlükdə maraqların subyekt və obyektlər üzrə bölgüsü prizmasından nəzərdən keçirilir. Turizmin özünəməxsus meyar və göstəricilər sistemi vardır. Turizmin meyarı qoyulan məsələnin və obyektin xarakterindən, mülkiyyət münasibətindən asılı olaraq formalaşır.

Turizm modelinin seçilməsi onun effektivliyini və faydasını qiymətləndirməyə imkan verir. Sosial sferada bütün interfeyslərin idarə edilməsinə diqqət yetirmək vacibdir. İdeal əməliyyat fərziyyəsinə uyğun olaraq səriştənin qiymətləndirilməsi böyük məhsuldarlıqdan asılı olmayaraq nəzərə alınır.

Azərbaycan keçmiş İttifaqın meyvə-tərəvəz bazası rolunda çıxış edirdi. Tədqiqat nəticəsində iddiaçı ölkənin ƏRK-ni meyvə-tərəvəzlə təmin etmə baxımından şərti olaraq dörd qrupa ayrır:

I. turistləri təzə meyvə-tərəvəzlə təmin edə bilmirlər;

II. turistləri təzə meyvə-tərəvəzlə təmin edə bilirlər, lakin onları emal etmək üçün resurslara malik deyillər;

III. turistləri təzə meyvə-tərəvəzlə təmin edə bilirlər və onları emal etmək üçün böyük olmayan resurslara malikdirlər;

IV. turistləri təzə meyvə-tərəvəzlə təmin edə bilirlər, onları emal etmək və ərazidən kənara çıxarmaq üçün kifayət qədər resurslara malikdirlər.

ƏRK qeyd edilən qruplar üzrə aşağıdakı kimi yerləşmişlər (cədvəl 2):

**Cədvəl 2.**

**Ərazi-rekreasyon komplekslərinin yerləşməsi xüsusiyyətləri**

| | Tərəvəzlər | Meyvələr |
|---|---|---|
| Şamaxı-Zaqatala | II | III |
| Qusar-Şabran | IV | IV |
| Gəncə-Mingəçevir | II | III |
| Qarabağ-Şərqi Zəngəzur | III | III |
| Kür ovalığı | I | I |
| Abşeron-Qobustan | I | I |
| Naxçıvan | I | I |
| Lənkəran | IV | I |

Cədvəldən göründüyü kimi ƏRK müxtəlif səviyyədə meyvə-tərəvəzlə təmin olunmuşlar. Məsələn, Qusar-Şabran ƏRK turistlərini təmin edəcək qədər meyvə-tərəvəzlə təmin olunmuşdur. Abşeron-Qobustan ƏRK isə onları başqa ƏRK-dan tədarük edir.

Həm ərazi rekreasyon kompleksləri (ƏRK) formalaşması, həmçinin müxtəlif rekreasyon obyektlərin meydana gəlməsi üçün ölkənin və ya regionun coğrafi mövqeyi vacib rol oynayır. Başqa

sözlə, dənizə, dağ və meşə massivlərinə yaxınlıq, istirahət edənlərin əsas axınına, vacib nəqliyyat qovşaqlarına münasibətdə əlverişli yerləşməsi mühüm əhəmiyyət kəsb edir.

Cədvəl 3-də ölkəmizin turizm sektoruna 2013-2020-ci illərdə qoyulan investisiyalar barədə məlumat verilmişdir.

**Cədvəl 3.**

**2013-2020-ci illərdə turizm sektoru üzrə qoyulan investisiyaların ümumi həcmi (milyon manat)**

| 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1371.0 | 2204.0 | 1063.9 | 363.0 | 267.3 | 229.7 | 133.7 | 79.3 | 97.2 | 99.3 |

## NƏTİCƏ

Dağ rayonlarının sosial-iqtisadi inkişafında turizmin rolunun artırılması məsələləri üzrə apardığımız tədqiqat işinin yekunu olaraq bir daha vurğulanır ki, turizm sektoru nəinki dağ rayonlarının, o cümlədən bütövlükdə ölkənin iqtisadi inkişafında təkanverici rol oynaya bilər.

- Dağ rayonlarında turizmin inkişafından əldə ediləcək ümumi səmərə elmi əsaslandırılmışdır.

Turizmin sosial-iqtisadi mahiyyəti, nəzəri baxımdan qiymətləndirilməsi müasir dövrdə iqtisadi inkişaf və dayanıqlılığın təmin olunması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Ölkədə iqtisadi potensialın formalaşmasında, resurslardan daha səmərəli istifadə edilməsində, inkişafın dinamikasının müəyyən edilməsində turizmin rolu olduqca vacibdir. Ayrıca bir fəaliyyət növü olmaqla yanaşı, turizmin nəzəri baxımdan qiymətləndirilməsinin digər vacib cəhəti isə iqtisadiyyatın digər sahələrində balanslı inkişafı, ərazi potensialının və əhalinin rifah halının yaxşılaşdırılması hesab olunur.

- Dağ rayonlarında turizm-rekreasiya fəaliyyətinin inkişafına mənfi təsir göstərən amillər müəyyən edilmiş və onların mənfi təsirinin azaldılması imkanları araşdırılmışdır.

Dağ rayonlarında turizmin inkişafı havanın aşağı və yüksək orta sutkalıq temperaturlarda daha əlverişlidir. Ona görə də belə ərazilərdə

havanın temperaturu 10-22$^0$ arasında tərəddüd edən günlər turizm və istirahət üçün əlverişli hesab edilir. Dağ rayonlarında belə orta sutkalıq temperatur isti mövsümdə mayın ikinci yarısından sentyabrın ortalarınadək müşahidə olunur.

Azərbaycanın ƏRK-nin, turist təsərrüfatlarının və marşrutlarının yerləşdirilməsi zamanı ölkənin əlverişli coğrafi mövqeyi qonşu ölkələrlə əlaqələrin qurulması ilə uzlaşdırılmalıdır.

- Azərbaycanda dağ turizminin inkişafı baxımından dünya təcrübəsində özünü doğrultmuş metodlar öyrənilmişdir.

Azərbaycan, özünün relyefi (dağları, düzənlikləri, çayları, gölləri və s.), əlveriışli iqlimi, mineral su ehtiyatları, keçdiyi zəngin tarixi inkişaf yolu ilə turizm sahəsində yüksək potensiala sahib olan ölkələrdən biridir. Məsələn, sağlamlıq turizminin inkişafı baxımından vulkan palçıqları, duzlu göllər, müalicəvi palçıqlar və palçıq yağları olduqca önəmlidir. Ya da Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları kimi yüksək relyefli ərazilərə nəzər salsaq, ölkəmizdə dağ və ov turizminin inkişaf potensialına sahib olduğunu görərik.

- Turizm sənayesinin inkişafına investisiyaların cəlb edilməsi zərurəti meydana çıxmışdır.

Bir tərəfdən, xərclənən pulların ərazidə turizm gəlirlərinin və əhalinin şəxsi gəlirlərinin formalaşmasında oynadığı rola görə turizm sektoru ölkə iqtisadiyyatına birbaşa təsir göstərir. Digər tərəfdən, turistlərin xərclərinin mal və xidmətlərin istehlakına yönəldilməsidir. Gəlirlər, gəlirlər, gəlirlər, nə qədər asan olduğunu ifadə etmək üçün istifadə edilə bilən bir düsturdur. Belə ki, turistlərin etdikləri xərclər dolayısı ilə son nəticədə turizm sektorunun inkişafına gətirib çıxarır. Bu da ölkə və regionun inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edir. Multiplikator effekti belə nəticəyə verilən addır. Turizmin ölkə iqtisadiyyatına təsiri birbaşa və ya dolayı ola bilər.

Ziyarətçilərin çəkdiyi xərclər və biznes gəlirləri, dövlət və yerli hökumətlərə ödənilən vergilər, əmək haqqı və sosial ödənişlər son nəticədə turizm sənayesində kapitalın artmasına kömək edir.

- Azərbaycanda dağ turizminin inkişafı əlaqədar sahələrin inkişafının da öyrənilməsini tələb edir.

Ölkədə ticarət və logistika mərkəzlərinin yaradılması və inkişafının prioritetləri ölkə prezidentinin 2016-cı ildə qəbul etdiyi "Azərbaycan

Respublikasında logistika və ticarət" sənədində öz əksini tapıb. Azərbaycanda bu sənaye, ölkənin regional ticarət və logistika mərkəzinə çevrilməsini sürətləndirir. Belə ki, bu qələbə bölgənin bərpasına sərf olunacaq xarici kapitalın cəlb edilməsinə şərait yaratmış oldu.

Təhsil, mədəniyyət, səhiyyə, idman və digər sferalardakı obyektlərin tikintisi və əsaslı təmiri dağ rayonlarında məşğulluğun və həyat səviyyəsinin yüksəlməsinə səbəb olacaqdır. Bu isə öz növbəsində miqrasiyanın qarşısını almaqla dağ turizminin inkişafı üçün də əlavə zəmin yaratmış olacaqdır. Əmək haqqının differensiallaşdırılması yolu ilə (əmək haqqlarına əlavələr təyin etməklə) dağ rayonlarına müəllim, həkim və digər gənc mütəxəssisləri cəlb etmək olar.

- Yeni Azərbaycan Turizm əmtəə nişanının işlənilməsi və hazırlanması istiqamətində turizm sənayesinin inkişafının təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi müəyyən edilməlidir.

Ölkəmizin dağ turizm profilli regiona çevrilməsi üçün mövcud imkanlarından tam şəkildə istifadə olunmur. Hesab edirik ki, həm təbii, həm də antropogen turizm ehtiyyatlarından istifadə etməklə bir sıra problemləri həll etmək mümkündür.

Aidiyyatı qurumlar dağ turizminin inkişafını dəstəkləməlidirlər. Birincisi, dağ turizminə dair ictimaiyyət məlumatlandırılmalı və maarifləndirilməlidir. Dağlıq ərazilərdə bir çox təbii, mədəni, tarixi, orijinal və ekzotik yerlər var. Bu yerlər turizm üçün çox əlverişlidir. Bu yerlərin tanıdılması üçün peşəkar səviyyədə marketinq tədqiqatı aparılmalı, biznes planlar tərtib olunmalı, reklam işi təşkil olunmalıdır.

- Müasir şəraitdə respublikada dağ turizminin inkişafı üçün aşağıdakı təklif və tövsiyələr irəli sürülmüşdür:

- Dağlıq ərazilərdə turizmin inkişafı məqsədilə (eyni zamanda kənd turizminin) güzəştli kreditlərin verilməsi;
- Turizm ehtiyatlarının qorunması və bu ehtiyatlardan səmərəlili istifadənin təmin edilməsi;
- Regionda aqroturizm, ekoturizm, meşə, biznes, macəra-ekstremal, dağ, etnik, dini, virtual və s. turizm sahələrini inkişaf etdirmək və bunun üçün rəqabət qabiliyyətinin artırılması məqsədilə beynəlxalq təcrübədən istifadə edilməsi;
- Turistlərin ucuz və sərfəli turizm imkanı qazanması məqsədilə regionda fəaliyyət göstərən ucuz və ya motel tipli

mehmanxanaların sayının artırılması. Bu eyni zamanda regionda məşğulluğun təmin olunmasına da kömək edəcək;

- Turizm sahəsində zəngin təcrübəsi olan ölkələrlə təcrübə mübadiləsi apararaq beynəlxalq əməkdaşlığın genişləndirilməsi yolu ilə turizm kadrlarının peşə hazırlığı səviyyəsini artırmaq;
- Regionda turizm idarəçiliyi və turizm fəaliyyəti yönümlü təlim mərkəzlərinin fəaliyyətə başlaması nəticəsində kiçik və orta sahibkarlıq subyektlərinin bu sahəyə cəlb edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

Qarabağ bölgəsinin mədəniyyət mərkəzi sayılan Şuşa, eləcə də digər məşhur turistik yerlər onun maddi və mənəvi tarixində öz əksini tapmışdır. Turizm nöqteyi-nəzərindən beynəlxalq reklam fəaliyyətinin həyata keçirilməsi vacibdir.

Qarabağ iqtisadi rayonunda ekologiya və ətraf mühitin mühafizəsi məsələləri diqqət mərkəzində saxlanılmalıdır. Ona görə də burada dağ turizmi ilə yanaşı, ekoturizmin inkişaf etdirilməsi də məqsədəuyğun olardı.

İşğaldan azad edilmiş torpaqlarda turizmin inkişaf etdirilməsi məqsədilə yerli və xarici investisiyaların cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu zaman yaradılacaq yeni iş yerlərinə yerli əhalini cəlb etməklə regionda məşğulluğu artırmaq mümkündür. Turizmlə bağlı regional inkişaf layihələri yalnız qeyri-regional resurslara arxalanmaqla uğurlu ola bilməz. Tarixi, mədəni dəyərlərin uzunmüddətli qorunub saxlanılması ilə turizm potensialını reallaşdırarlən planlaşdırma prosesinin hər bir səviyyəsində yerli əhalinin iştirakını təmin etmək vacibdir.

Zəngəzur nəqliyyat dəhlizinin işə düşməsi Azərbaycanın regionun logistika və nəqliyyat şəbəkələrində mövqeyini yaxşılaşdıracaq.

Dağlıq ərazilərdə yüksək texnologiyalı, ekoloji cəhətdən şüurlu yaşayış mühitlərinin yaradılması, eləcə də bu sahədə turizm inkişafı aşağıdakıların inkişafı ilə bağlı proqramların, layihələrin və strategiyaların hazırlanmasını zəruri edir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Dağ rayonlarında turizm fəaliyyətinin sosial-iqtisadi səmərəsinin yüksəldilməsi yolları. // – Bakı: “Azərbaycan aqrar elmi”, 2018, № 5. – s. 161-164
2. Azərbaycanda turizmin inkişafının müasir tendensiyaları. // – Bakı: “Kooperasiya” elmi-praktik jurnal, 2019, № 4. (55). – s.186-190
3. Azərbaycan Respublikasında turizm infrastrukturunun inkişafının tənzimlənməsi. // – Bakı: “Kooperasiya” elmi-praktik jurnal, 2020, № 4 (59). – s. 160-165
4. The role of tourism in the development of mountain regions. Colloquium – journal economic sciences, //– Polşa, 2022, № 27 (150). s. 26-29
5. Azərbaycanın dağ rayonlarının turizm xidmətinin dayanıqlı inkişafını formalaşdıran amillər. // – Bakı: “Audit” elmi-praktiki jurnal, 2022, № 4 (38). – s. 90-100.
6. Socio-economic nature and characteristics of tourism areas. 1st International Scientific Conference “Scientific Results”, // – İtaliya, 2022, – s. 102-111.
7. Dağ turizmi və onun Azərbaycanda inkişaf prespektivləri. “Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının aktual problemləri” mövzusunda respublika elmi konfransı, // – Sumqayıt, 2022, № 6. s. 39-41
8. Factors shaping the development of tourism services in mountain regions. // – Polşa: The scientific and technical online conference “Research Retrieval and Academic Letters”, 2023, № 1. s. 48-55
9. Azərbaycanın dağ rayonlarında turizmin inkişafında Heydər Əliyevin rolu. // – Bakı: Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 02 may 2023.



Dissertasiyanın müdafiəsi 27 iyun 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 25 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024

Kağızın formatı: 60x84

Həcm: 45777 işarə

Tiraj: 100 ədəd